# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Tərəfdaşlıq**



**İcra müddəti:** 01.01.2011 - 30.12.2029

**ŞT ölkələri:**

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

**Aİ-nin maliyyə yardımı:** € 94 450 000

**İcraçı təşkilat(lar):**

EBRD, EIB, NEFCO, CEB, KfW, NIB, WBG

**Sosial media hesablarına keçidlər:**

**Internet səhifəsi:** e5p.eu

**Layihənin təsviri:**

Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Tərəfdaşlıq (E5P) Şərq Tərəfdaşlığı regionunda enerji səmərəliliyi və ətraf mühit layihələrinə bələdiyyə investisiyalarının cəlb edilməsi məqsədilə 2009-cu ildə İsveçin Avropa İttifaqına sədrlik etdiyi dövrdə yaradılan 243 milyon avroluq multi-donor və multi-icraedici orqan fondudur. Əvvəlcə yalnız Ukraynada fəaliyyət göstərən Fond 2014-cü ildə öz fəaliyyətini Ermənistan, Gürcüstan və Moldovaya daşıyaraq rəsmi olaraq genişləndirmişdir. 2017-ci ildə bu siyahıya Belarus, 2019-cu ildə isə Azərbaycan da əlavə edildi.

E5P Avropa İttifaqının və Fonddan faydalanan ölkələr də daxil olmaqla 24 ölkədən ibarət qrupun maliyyə ianələrini özündə birləşdirir. Aİ Fondun ən böyük donoru və E5P-nin əsas idarəetmə orqanı olan Donorların Yığıncağının sədridir. AYİB E5P-ni idarə edən təşkilatdır və Fondun idarə olunması üçün bütün maraqlı tərəflərin adından inzibati dəstək göstərir.

Fondun iş prinsipi

E5P-nin investisiya qrantları ənənəvi olaraq bələdiyyə sektorunda müşahidə edilən inkişafa güclü təsir göstərən ətraf mühit layihələrini dəstəkləmək və bazardakı maneələri aradan qaldırmaq üçün iştirakçı İcraedici Orqanların verdikləri kreditlərlə birləşdirilir. İcraedici Orqanlar bunlardır: Avropa Şurası İnkişaf Bankı (CEB), Avropa Yenidənqurma və İnkişaf

**Gözlənilən nəticələr:**

Fond bu layihələr vasitəsilə aşağıdakıları təmin etməyə çalışır:

- Karbon qazı emissiyalarının və digər zərərli istixana qazlarının miqdarının azaldılması.
- Enerji səmərəliliyinin artırılması.
- Siyasətin işlənib hazırlanması ətrafında dialoqa və tənzimləyici islahatlara dəstəyin verilməsi.